# Azərbaycanın islam həmrəyliyi təşəbbüsü müasir qlobal çağırışlar kontekstində



Səbuhi Abbasov,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı
E-mail: *sabuhiabbasov@mail.ru*

İqtisadi əsaslar üzərində başlanmış qloballaşma prosesi XXI əsrin II onilliyində yaşadığımız hazırkı tarixi mərhələdə təkcə iqtisadiyyatı, dünya ticarətini deyil, təhlükəsizlikdən mənəviyyata kimi digər sahələri də əhatə etməkdədir. Media, informasiya-kommunikasiya vasitələrinin qloballaşmanın əsas elementlərindən olması ilə yanaşı, millətlər arasında mədəni axınlar da müasir qloballaşmanın aparıcı xüsusiyyətlərindəndir. Qloballaşmanın indiki mərhələsini xarakterizə edəndə 3 əsas tarixi vəziyyəti mütləq nəzərə almaq lazımdır: 1) sovet blokunun dağılması və beynəlxalq münasibətlərin ikiqütblü sisteminin parçalanması; 2) lider dövlətlərin dünya inkişafının postsənaye mərhələsinə keçməsi; 3) dünya iqtisadiyyatının məhəllliləşdirilməsi *(1)*.

Qloballaşma özü ilə birgə beynəlxalq siyasətə də müəyyən çalarlar gətirərək təsir göstərir. Qeyd edilən təsirləri bir neçə istiqamətdə göstərmək olar: 1) qloballaşma Qərb dəyərləri ilə yanaşı, Qərb siyasi sisteminin, siyasi qaydalarının da Yer kürəsinə yayılması ilə vahid siyasi unifikasiyaya, alternativ siyasi sistemlərin sıradan çıxarılmasına və ya zəifləditməsinə səbəb olur; 2) qloballaşma prosesində yaşanan siyasi-iqtisadi böhranlardan istifadə edərək böyük dövlətlərin digər məkanlarla yanaşı, islam coğrafiyasında da nüfuz dairələrini genişləndirmək cəhdləri müşahidə edilir (misal üçün: ərəb baharı böhranı); 3) çoxqütblü dünyaya doğru irəlilədikcə qüvvələr balansı nəzəriyyəsindən tədricən uzaqlaşma, təhlükəsizlik üçün hegemon rol uğrunda mübarizəyə istiqamətlənmə meyilləri artır; 4) qloballaşma zamanı ticarət əlaqələri, iqtisadi münasibətlər sərbəst xarakterlə yanaşı, böyük güclərin maraqları naminə hərbi-siyasi təhdidləri ilə məcburedici xarakter də daşıya bilir. Qeyd olunanlar qloballaşma prosesinin islam dünyasında siyasi çağırışlarla da müşayiət edildiyini göstərir.

Beynəlxalq münasibətlərdəki hazırkı reallıqlar və çağırışlar islam dünyasının gələcəyi ilə bağlı pessimist baxışların formalaşmasına əsas verməməli, problemlərin müəyyən edilməsi və səbəblərinin aradan qaldırılması istiqamətində birgə addımlar atılmalıdır. Bütün bu çağırışlar islam dünyasında birgə hərəkatın formalaşmasının, fəaliyyətlərin koordinasiya edilməsinin, böyük islam sivilizasiyasının mühafizəsi və inkişafı üçün müsəlmanlar arasında həmrəylik mexanizmlərinin tətbiqinin əhəmiyyətini ortaya qoymaqdadır. İslam dünyasına aid olan dövlətlər bütün sahələrdə üzləşdiyi çətinliklərin həllinin tələbinə görə bu gün yolayrıcında durmuşdur və seçim etməlidir: ya qısamüddətli fərdi maraqlara görə böyük güclərin maraqlarına uyğun hərəkət edərək tərəddüdlü və zəif aktor kimi qalmaq, ya da məzhəblərarası, iqtisadi, siyasi gərginliklərdən kənar, həqiqi islam həmrəyliyi nəticəsində dünyada yeni kollektiv güc mərkəzinə, islam birliyinə çevrilmək istiqamətində irəliləmək. Belə bir güc mərkəzinə çevrilməyə islam dünyasının hər cür potensialı – təbii resursları, əlverişli coğrafi məkanı, işçi qüvvəsi, elmi-texnoloji, hərbi imkanları mövcuddur. Həmçinin müştərək dini inanc və mənəvi qüvvə, sivilizasiya identikliyi, ümumi maraq və tələbatlar, ümumi təhdidlərə qarşı birgə çıxış etmək islam dünyası üçün mühüm birləşdirici faktorlardır. Ekspertlərə görə, müsəlman



dövlətləri qlobal güc sistemində öz real statuslarına müsəlman dövlətlərinin maraqlarına cavab verə biləcək "İslam Dövlətləri Birliyi"nin yaradılması yolu ilə nail ola bilərlər *(2)*. Bu baxımdan qloballaşmanın davam etdiyi müasir beynəlxalq münasibətlər kontekstində islam dünyasının üzləşdiyi çağırışlara reaksiyası kimi islam həmrəyliyi konsepsiyası aktuallaşmışdır.

İslam həmrəyliyinin islam dünyası, dünya sülhü üçün əhəmiyyətini, eyni zamanda Azərbaycan Respublikasında mövcud multikultural şəraiti, təkcə islam məzhəbləri deyil, digər dinlərin nümayəndələri arasında da tarixən təşəkkül tapmış qarşılıqlı hörmət və həmrəylik münasibətlərinin dünyada islam həmrəyliyi üçün də nümunəvi əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dünyadakı müsəlman liderləri arasında islam həmrəyliyi üçün dövlət səviyyəsində ilk dəfə təşəbbüs göstərilərək böyük siyasi müdrikliklə 2017-ci il Azərbaycan Respublikasında "İslam həmrəyliyi ili" elan edilmiş, bu barədə 10 yanvar 2017-ci il tarixli sərəncam imzalanmışdır. İslam həmrəyliyi ilə bağlı islam dünyasında formalaşmış fikirlərlə yanaşı, Azərbaycan Respublikasının islam həmrəyliyi konsepsiyası öz xüsusiyyətləri ilə, ölkədaxili və xarici elementləri vəhdətdə ifadə etməsi, təkcə müsəlmanları deyil, qeyri-müsəlmanları da əhatə etməsi ilə əlamətdardır. Yerləşdiyi coğrafi məkan, xristian sivilizasiyası ilə islam sivilizasiyasının görüşdüyü strateji mövqeyi, Azərbaycanın islam dünyasında demokratik, dünyəvi dövlət kimi bir çox ilklərə imza atması, dialoq məkanına çevrilməsi Azərbaycanın islam həmrəyliyi təşəbbüsünün dünyada sülhün və inkişafın təmini baxımından üstünlüklərindəndir. Planetin artan enerji ehtiyacı və ticarət əlaqələrinin genişləndirilməsi tələbatı qarşısında Xəzər hövzəsi və Cənubi Qafqaz özünün zəngin karbohidrogen ehtiyatları, Şərq–Qərb, Şimal–Cənub əlaqələrində, nəqliyyat-kommunikasiya sahəsindəki imkanları ilə bütün transmilli dünyanın nəzərdiqqətini özünə cəlb edərək geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir *(3)*. Belə bir kəsişmə nöqtəsində yerləşən Azərbaycanın islam həmrəyliyi konsepsiyasını irəli sürməsi ilə sivilizasiyalararası münasibətlərdə öz mövqeyini ifadə etmiş, islam sivilizasiyasına aid olduğunu, eyni zamanda demokratik-dünyəvi respublika kimi öz inkişaf xətti ilə uğurla irəlilədiyini göstərmişdir. Azərbaycan Respublikasının islam həmrəyliyi konsepsiyasını səciyyələndirən digər bir mühüm cəhət ondan ibarətdir ki, islam həmrəyliyi fərqli dinlərə qarşı islam cəbhəsi açmaq mənasında deyil, islam dini ən gözəl birləşdirici dəyər kimi, müsəlman ölkələrinin həmrəyliyini təmin edən ortaq nöqtə kimi qəbul edilir. Sülh dini olan islam dininin fərqli dinlərə qarşı hörmətlə yanaşma prinsipini də əhatə edən islam həmrəyliyi təkcə islam dünyası üçün deyil, bütövlükdə dünya sülhü üçün də əhəmiyyət kəsb etməkdədir. İslam həmrəyliyi müsəlman dövlətləri arasında ən vacib çağırışlardan olan təhlükəsizliyə də böyük töhfə verə biləcək bir konsepsiyadır. Məlum olduğu kimi, təhlükəsizliyin təmini funksiyası müasir dövrümüzdə hər bir dövləti düşündürən ən vacib məsələlərdəndir. Bu baxımdan təhlükəsizliyi təhdid edən elementlərin, o cümlədən də həmin təhdidlərin tərkib hissəsi olan qlobal çağırışların müəyyənləşdirilməsi və həmin çağırışlara qarşı tədbirlərin tətbiqinin əhəmiyyəti şübhəsizdir. Nəzərə almaq lazımdır ki, hər bir cəmiyyət üçün təhlükəsizliyə müasir təhdidlər kompleks xarakter daşıyır. Çox zaman onların daxili və xarici, iqtisadi və siyasi təhdidlərə bölünməsi çətinlik törədir *(4)*.

Müasir dövrün yeni siyasi çağırışlarından biri kimi qloballaşma dalğası ilə imperializmin fərqli qiyafədə təzahürü bu cür elementlər qarşısında islam həmrəyliyinin nə qədər vacib olduğunu göstərir. Professor Hikmət Məmmədov müasir kibertexnologiyaların və yaxud texnoloji innovasiyaların gətirdiyi xüsusiyyətlər və keyfiyyətlərin cəmiyyət daxilində, eləcə də müasir beynəlxalq münasibətlər sistemində əhəmiyyətli dəyişikliklər etmək gücündə olduğundan qloballaşma dövründə imperializmin yeni forması kimi daha çox informasiya resursları və



idarəetməsi üzərində qurulan "infoimperializm" anlayışını irəli sürür. Hikmət Məmmədovun fikrincə, infoimperializm adlandırılan yeni beynəlxalq siyasi sistem inkişaf prosesində olduqca maraqlı, ancaq eyni zamanda proqnozlaşdırılması xeyli çətin olan problemlər’ də əmələ gətirir. Bu problemlər cəmiyyətin ən ağlagəlməz sahələrinə nüfuz etməklə bir sıra hallarda yeni keyfiyyət dəyişikliklərinə, əksər hallarda isə dəhşətli aşınmalara gətirib çıxarır *(5)*.

İnformasiya müharibəsinin, infoimperializmin kəskinləşdiyi qloballaşan dünyamızda dezinformasiyadan ən çox əziyyət çəkən elə islam dünyasıdır. İslamı ləkələməyə çalışan, müsəlmanları terrorçu kimi qələmə vermək istəyən islamofob dairələrin əsas alətlərindən biri də media və digər informasiya vasitələridir. İslam dini və müsəlmanları nüfuzdan salmağı, dini nifrət oyatmağı hədəfləyən bu cür imperialist informasiyalara qarşı birgə çıxış etməkdə islam həmrəyliyi təşəbbüsü mühüm rol oynaya bilər. Müsəlman dövlətləri arasında müxtəlif səviyyələrdə sıx təmasların qurulması, informasiya imperiyasına qarşı müqavimət resurslarının işə salınması, dünyaya nifrət deyil, sülh mesajının verilməsi üçün islam həmrəyliyi böyük potensiala malik bir yanaşmadır. Bu cür yanaşma ilə islam dünyasına daxil olan dövlətlər həm müsəlmanlar haqqında mənfi obraz yaradılmasına çalışan qüvvələri ifşa etmiş olar, həm də milli dövlət kimi öz dəyərlərinə qarşı istiqamətlənmiş çağırışlara adekvat cavab verə bilər.

Dünyada vahid imperialist şəbəkə və yaxud şəbəkə hakimiyyəti (netokratiya) formalaşdırılmasına, "qlobal dövlət"in yaradılmasına istiqamətlənən proseslər milli dövlətlərin zəiflədilməsinə və idarə edilə bilən olmasına gətirib çıxarmaqdadır. Əslində, infoimperializm çərçivəsində idarəetmə aparatı kimi istifadə olunan institusional qurum məhz milli dövlətlərdir. Çünki milli dövlət real sosial-siyasi təsisat olmaq etibarilə başlıca idarəetmə aparatıdır. Elə ilkin idarəetmə institutları deyəndə də milli dövlətlər nəzərdə tutulmuşdur. Nəticə etibarilə "Mondializm" və "Qlobal dövlət" konsepsiyasında da milli dövlətlər "qlobal dövlət"in dayağı və yaxud institusional substratı kimi səciyyələndirilir. Bunun üçün milli dövlətlərin gücünün və səlahiyyətlərinin məhdudlaşdırılması nəzərdə tutulur *(6)*. Bu prosesdə islam dövlətlərinin təkbaşına qlobal çağırışlara qarşı duruş gətirə bilməsi olduqca çətin bir vəzifədir. Bu baxımdan islam həmrəyliyi "Qlobal dövlət" istiqamətində irəliləyən qloballaşma prosesindəki çağırışlara müqavimət göstərə bilməsi üçün bir daha öz əhəmiyyətini göstərmiş olur. Təbii ki, islamı bölmək istəyən qüvvələr bunu dərk edərək islam həmrəyliyinə qarşı öz məkrli fəaliyyətlərinə də davam etməkdədirlər. Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı yekun nitqində cənab prezident İlham Əliyev bu gün fəaliyyət göstərən antiislam dairələrini ifşa edərək qeyd etmişdir: "Onlar öz imkanları hesabına həm mediada, həm ictimai fikirdə, həm müxtəlif qeyri-hökumət təşkilatları çərçivəsində rəy formalaşdırırlar ki, islam dünya üçün təhlükədir, islamı terrorizmlə eyniləşdirirlər, islamofobiyaya rəvac verirlər, xalqları dinə görə bölürlər, müsəlman qaçqınlarına qarşı hörmətsizlik edirlər. Avropa İttifaqına üzv olan bəzi ölkələrin rəhbərləri "Stop, islam!" deyirlər. Bəziləri deyirlər ki, biz miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlmanları yox. Bu, faşizmdir və faşizm harada yaranıb biz yaxşı bilirik və unutmamışıq. Faşizm islam aləmində yaranmayıb. Ona görə də İslam Həmrəyliyi Oyunlarının çox böyük mənası var. Biz bu oyunları keçirməklə bir daha gücümüzü, imkanlarımızı göstərəcəyik, dini dəyərlərimizə sadiqliyimizi nümayiş etdirəcəyik, çalışacağıq ki, islam aləmini birləşdirək. Bizi bölmək, aramıza nifaq salmaq, bir-birimizə qarşı qoymaq istəyənlər öz hədəflərinə çatmamalıdırlar" *(7)*.

Beynəlxalq münasibətlər müstəvisi fərqli ərazi ölçülərinə malik olan subyektlərin (iştirakçıların, münasibət tərəflərinin), elementlərin, ünsürlərin yan-yana coğrafi-siyasi düzülüşü ilə xassələnir. Beynəlxalq münasibətlərin harmonizasiyası başlıca olaraq fərqli elementlərin bir-biri ilə müxtəlif səviyyələrdə və məsələlərdə yaranan əlaqələri, təmasları ilə meydana gəlir *(8)*. Beləliklə, qeyd edə bilərik ki, islam həmrəyliyi konsepsiyası qlobal çağırışlara qarşı səmərəli müqavimət göstərməklə yanaşı, beynəlxalq münasibətlərdə də bir harmoniyanın, müsəlman dövlətlərin qeyri-müsəlman dövlətləri ilə münasibətlərində ahəngin yaranmasında mühüm rol oynayan bir konsepsiyadır.

Bu gün islam dünyasında milyardlarla dollarlıq valyuta ehtiyatları ilə zənginləşmiş, yüksək rifah halında yaşayan bəzi ərəb dövlətləri ilə yanaşı, xüsusilə Afrika qitəsində yerləşən, əhalisi aclıqdan əziyyət çəkən, minimum iqtisadi imkanlardan, investisiyalardan məhrum olan, qeyri-müsəlman dövlətlərinin və beynəlxalq təşkilatların yardımına möhtac qalmış müsəlman dövlətləri də mövcuddur. Görünən odur ki, bəzi müsəlman dövlətlərinin ictimai-siyasi, iqtisadi geriliyində islam dünyasının öz günahları da böyük təsir göstərir və təəssüflər olsun ki, islam dünyasındakı həmrəyliyə xidmət edən və mane olan

faktorların analizi müsəlman dövlətləri arasındakı beynəlxalq münasibətlərdə ikincilərin sayca daha çox və daha təsirli olduğunu göstərməkdədir. Bu baxımdan islam həmrəyliyi iqtisadi imkanların da səfərbər edilməsinə yönəlmiş təşəbbüs kimi vurğulana bilər.

İslam həmrəyliyi bütün dünyanı düşündürən növbəti bir çağırış – sivilizasiyalararası toqquşmanın qarşısının alınması kontekstində də böyük əhəmiyyət kəsb etməkdədir. ABŞ alimi Samuel Hantinqtonun "Sivilizasiyaların toqquşması" nəzəriyyəsi 1993-cü ildə ABŞ-ın xarici siyasət jurnalı olan "Foreign affairs"də dərc edilən məqaləsi ilə məşhurlaşmış, təhlükəli bir proqnoz kimi, əslində, dünya üçün qlobal çağırışa çevrilmişdir *(9)*. Təbii ki, biz buna görə Samuel Hantinqtonu "çağırışın müəllifi" kimi günahlandırmır, əksinə, mövcud reallıqları ifadə edən bir nəzəriyyə kimi müsbət qarşılayırıq, lakin sivilizasiyaların toqquşmasının qaçınılmazlığı fikrinə təslim olmağı düzgün hesab etmirik və bunun qarşısının alınmasında sivilizasiyaların imkanlarının tükənmədiyinə inanırıq.

Nə qədər paradoksal görünsə də, sivilizasiyalararası münaqişənin həmin sivilizasiyaların içində gedən proseslərdən, parçalanmalardan doğacağı fikri elə Hantinqtonun özü tərəfindən irəli sürülür. Professor Ali Yaşar Sarıbayın fikrincə, Hantinqtonun önə sürdüyü gerçəkliklər bir cümlə ilə belə xülasə edilə bilər: "Sivilizasiyaları təşkil edən cəmiyyətlərin içində düşdükləri parçalanmışlıq və bölünmüşlük bu çarpışmanı (sivilizasiyalararası toqquşmanı) doğuracaqdır" (10). Daxilən parçalanmış sivilizasiya öz vahid mövqeyini itirir ki, bu gün biz bunu beynəlxalq münasibətlərdə islam dünyasının simasında müşahidə edə bilərik. Terrorçu qrupların islam adına çıxılması, idarəçiliyi itirilmiş müsəlman dövlətlərində radikallığın artması, məzhəblərarası gərginliyin alovlandırılması ilə islam sivilizasiyası da böyük zərər görərək parçalanmağa doğru sürüklənməkdədir. Bu isə son nəticədə daxildən islam sivilizasiyası adından çıxan hər hansı qüvvənin digər sivilizasiya ilə qarşıdurmaya getməsinə və bununla da sivilizasiyaları məcburən toqquşmaya istiqamətləndirə bilər. Həmrəylik ideyası isə sivilizasiyanın bütövləşməsinə, radikallığın qarşısının alınmasına, sağlam düşüncələrin üstünlük qazanmasına səbəb olan bir yanaşmadır. Bu nöqteyi-nəzərdən Azərbaycan Respublikasının islam həmrəyliyi konsepsiyası təkcə islam dünyasındakı cəmiyyətlər arasında parçalanmaların, bölünmələrin qarşısının alınmasını hədəfləyən konsepsiya kimi deyil, bütövlükdə sivilizasiyalararası toqquşmanı da istisna edən yanaşma kimi öz əhəmiyyətini aşkar etmiş olur. ❖


**Ədəbiyyat:**

1. Hikmət Babaoğlu. Dünya siyasəti və beynəlxalq münasibətlər. Dərslik. Bakı–2010, səh. 449.
2. *Geopolitical Challenges of Convergence in Islamic World. Hafeznia M. R., Zarghani S.H. Human Geography Research Quarterly, No. 80, Summer 2012.*
3. Ə.M.Həsənov. Xəzər – Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı, "Zərdabi LTD" MMC, 2016, səh. 9.
4. Xəlilov Cəlil. "Milli təhlükəsizlik strategiyası". Bakı, 2016, səh. 139.
5. Hikmət Baba oğlu Məmmədov. "İnfoimperializm və media". Bakı, "MSA", 2013, səh. 12.
6. Yenə orada, səh. 24.
7. *http://president.az/articles/22435*
8. E.M.Nəsibov. Münasibətlərin balanslaşdırılması (dövlətdaxili siyasətdə və beynəlxalq aləmdə). Dinamik inkişaf; sabitlik; sülh (dünya sülhü). I cild. Bakı, "Elm və təhsil", 2012, səh. 320.
9. *Huntington, Samuel P. "The Clash of Civilizations" Foreign Affairs Vol. 72. No 3 (Summer 1993), p. 22-49.*
10. *MEDENİYYETLER ÇATIŞMASINDAN DİYALOĞA. Gazeteciler ve Yazarlar Vakfı Yayınları. ZAMAN. İstanbul-2000, səh. 169.*



**Резюме**

Современные международные отношения в странах исламского мира сталкиваются с большими трудностями. В связи с этим, понятие исламской солидарности актуализируются в ответ на вызовы, с которыми сталкивается исламский мир в контексте процесса глобализации. Обо всем этом говорится в этой статье.

В статье проанализирован важность инициативы Исламской солидарности в Азербайджанской Республике против современных глобальных проблем.



**Ключевые слова:** исламский мир, солидарность, концепция, мир, вызов.



**Summary**

In Contemporary international relations the countries of the Islamic world with a wave of globalization faced great difficulties and challenges in order to protect from the adverse effects of globalization and to create a balance between the national economic, political and cultural features and globalization. In this regard, the concept of Islamic solidarity actualized as a response to the challenges facing the Islamic world in the context of ongoing globalization. In this article the importance of the Islamic Solidarity initiative of the republic of Azerbaijan against the modern global challenges has been analyzed.



**Key words:** the islamic world, solidarity, concept, peace, challenge.